**2026-cı ilin may ayı ərzində qazpaylayıcı şəbəkəyə texniki xidmət üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin Müayinə və texniki xidmətin monitorinqi sektorunun əməkdaşları tərəfindən 2026-cı ilin 4 may tarixindən 26 may tarixinədək müddətdə “Azəriqaz” İstehsalat Birliyi (bundan sonra – qazpaylayıcı sistem operatoru) üzrə qazpaylayıcı şəbəkəyə texniki xidmətin həyata keçirilməsinin monitorinqi keçirilmişdir.

Monitorinq nəticəsində qazpaylayıcı sistem operatoru tərəfindən Ağsu, Salyan, Tərtər və Şəmkir Regional Qaz İstismar İdarələrinin xidməti əraziləri üzrə qazpaylayıcı şəbəkədə bir sıra qəza hallarının (qaz sızmalarının) vaxtında aradan qaldırılmadığı, həmçinin Salyan və Şəmkir Regional Qaz İstismar İdarələri üzrə istismar olunan qaz tənzimləyici qurğuların hissələrinin dəyişdirilməsi ilə əlaqədar təmir (yoxlama) işlərinin nəticələrinin həmin qaz tənzimləyicilərinin pasportunda qeyd edilmədiyi müəyyən edilmişdir.

Aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədilə qazpaylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.